# Məktəblilərlə görüş

***Azərbaycan İlahiyyat İnstitutu 2019-2020-ci tədris ili üzrə İnstituta yüksək intellektli və savadlı gənclərin cəlb olunması məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirmə tədbirlərini davam etdirir. İnstitutun növbəti səfəri Qəbələ rayonuna olub.***

İnstitunun rektoru Ceyhun Məmmədov, Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova və tədbirin digər iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək dahi rəhbərin xatirəsini ehtiramla yad ediblər.





Şəhər 5 nömrəli tam orta məktəbdə keçirilən görüşdə icra hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ətayə Osmanova ölkəmizdə təhsil sahəsində davamlı olaraq islahatların həyata keçirildiyini bildirib. Qeyd olunub ki, müasir Azərbaycan təhsili özünün zəngin mütərəqqi ənənələrinə, milli-mənəvi, ümumbəşəri dəyərlərə və beynəlxalq təcrübəyə əsaslanaraq inkişaf edir. RİH başçısının müavini yeniyetmə və gənclərin mütərəqqi dünyagörüşə malik şəxsiyyət kimi formalaşması, milli-mənəvi dəyərlərə sadiq, vətənpərvər ruhda böyüməsi istiqamətində görülən işlərə diqqət çəkib.

Ceyhun Məmmədov çıxışında bildirib ki, Azərbaycanda təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Ulu öndər Heydər Əliyevin təhsilin inkişafına hər zaman xüsusi diqqət və qayğı göstərdiyini söyləyən rektor vurğulayıb ki, hazırda həmin siyasi xətt cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, dövlət başçısının rəhbərliyi ilə təhsil sahəsində önəmli islahatlar həyata keçirilir.

İnstitut haqqında danışan Ceyhun Məmmədov bu təhsil müəssisəsinin yaranması, fəaliyyət istiqamətləri, beynəlxalq əlaqələri haqqında məlumat verib. Qeyd edib ki, İnstitut Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyətin təşkili sahəsində yüksəki xtisaslı kadrların hazırlanmasının təmin olunması məqsədilə yaradılıb.

İnstitutun magistratura və doktorantura şöbəsinin müdiri Fidan Yusifova ali təhsil müəssisəsinə qəbul prosesi və mövcud ixtisaslar haqqında geniş məlumat verib. O, instituta qəbul olunmuş abituriyentlərin ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacağını vurğulayıb. Fidan Yusifova tələbələrin ödənişsiz geyim və yeməklə təmin ediləcəklərini, dərslərdən əlavə, ayrıca xarici dil kurslarına cəlb olunacaqlarını da bildirib.

Sonda institutun tanıtım videoçarxı, ictimai fəaliyyətini əks etdirən materiallar nümayiş etdirilib.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Zona yarışında iştirak edəcəklər

Gənclər və idman idarəsinin təşkilatçılığı ilə mayın 15-də kompüter oyunları üzrə rayon çempionatı keçirilmişdir. Çempionatda müxtəlif sahələrdə çalışan, təhsil alan 30 nəfər gənc iştirak etmişdir. Yarışlar "FİFA-19" və "Counter-Strike" oyunları qaydaları üzrə təşkil olunmuşdur.

Çempionatın açılış mərasimində idarənin rəisi Fəxri Soltanov çıxış edərək yarışların təşkilində məqsədin kiber idman növünü rayonda populyarlaşdırmaq, həmçinin gənclərin müasir informasiya-kommunikasiya texnologiyalarına və kompüter texnikasına marağını artırmaq, yeniyetmələr də zehni inkişaf etirmək, alternativ vəziyyətlərdə nə edə bilmək və qərar vermək mədəniyyətini formalaşdırmaqdan ibarət olduğunu bıldirmişdir.

Yekunda "FİFA-19" oyunu üzrə Azər Cabbarlı I yerə, Təbriz Məmmədov II yerə və Ramazan Əhmədov III yerə layiq görülmüşlər. Komanda hesabı üzrə keçirilən "Counter-Strike" oyununda "Qəbələ" komandası I yeri tutmuşdur.

Qaliblərə gənclər və idman idarəsinin diplomları təqdim edilmişdir. Onlar Qax rayonunda keçiriləcək kompüter oyunları üzrə Azərbaycan çempionatının zona yarışında iştirak etmək hüququ əldə etmişlər.

**Mübariz AĞAYEV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# Kitaba maraq artırılır

İlham Abdulkərimov adına Nohurqışlaq kənd tam orta məktəbində şagirdlərin bədii ədəbiyyata marağını artırmaq üçün müxtəlif tədbirlər həyata keçirilir. Bu günlərdə məktəbin kitabxanasında "Mütailəyə maraq oyadaq" devizi altında Süleyman Sani Axundovun "Nurəddin" hekayəsinin müzakirəsi keçirilib. Hekayənin süjeti "yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq ər kişinin işidir" atalar sözü üzərində qurulub. Humanizmi, insanlığı təbliğ edən hekayə şagirdlərin böyük marağına səbəb olub.

Hekayənin müzakirəsi zamanı VII sinif şagirdlərinin fəallığı göstərdi ki, onların hamısı "Nurəddin" hekayəsini və Süleyman Sani Axundovun digər hekayələrini maraqla oxuyublar.

Bədii əsərlərə marağın artırılması üçün həyata keçirilən tədbirlər sayəsində məktəb kitabxanasına müraciət edənlərin sayı xeyli artıb. Kitaba marağın oyadılması şagirdlərin boş vaxtlarının səmərəli keçməsi, pis vərdişlərdən uzaq olmaları üçün çox əhəmiyyətlidir.

**Aygün Əhmədova,**
**məktəbin kitabxanaçısı.**

# Ekskursiya maraqlı keçib

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin tələbələri Beynəlxalq Muzeylər Günündə rayon tarix-diyarşünaslıq muzeyinə ekskursiya ediblər.



Tələbələrə bildirilib ki, muzeydə 2500 illik tarixi əks etdirən 14000-dən çox eksponat nümayiş olunur. Muzeyin 900 kvadratmetrlik binası, 13 ekspozisiya zalı, fondu, Heydər Əliyev xatirə otaqları, şəkil qalereyası, zəngin elmi kitabxanası, açıq səma altında qədim daş abidələrdən ibarət sərgi meydançası var.

Sonra Beynəlxalq Muzeylər Gününə həsr olunmuş "Açıq dərs" keçirilib.

**"Qəbələ"**

# Tələbələrimizin peşə uğurları

***Ölkədə peşə təhsilinin inkişafı, təhsil alanların peşə bacarıqlarının təkmilləşdirilməsi məqsədi ilə Bakı şəhəri 5 saylı Turizm və Sosial Xidmətlər üzrə Peşə Təhsil Mərkəzində gənc aşbazlar çempionatı keçirilmişdir.***

Yarışda ölkənin aşpaz peşəsi üzrə kadr hazırlığı aparan peşə təhsil mərkəzlərinin yeddi komandası iştirak etmişdir. Mərasimin açılışında 5 saylı Peşə Təhsil Mərkəzinin, Peşə Təhsili üzrə Dövlət Agentliyinin, Milli Kulinariya Mərkəzinin rəsmiləri, iş adamları çıxış edərək ölkədə peşə təhsilinin inkişafı sahəsində görülən işlərdən danışmış, yarış iştirakçılarına uğurlar arzulamışlar.



Sonra iştirakçılara yarışın qaydaları haqqında məlumat verilmişdir. Yarış iştirakçıları verilən vaxt ərzində manqalda müxtəlif qızardılmış ət yeməklərini hazırlamışlar. Bu vaxt müddətində yerli və xarici peşəkar ekspertlərdən ibarət münsiflər heyəti bütün prosesləri izləmişdir.

Yarışın sonunda münsiflər heyətinin yekdil rəyi ilə Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin yarışda iştirak edən tələbələri Elşad İbrahimovun, Fuad Eyyubovun, Pünhan Ələğazadənin hazırladıqları yeməklər ən yüksək qiymətlə birinci yerə layiq görülmüşdür. Komandamız gənc aşpazlar çempionatının kuboku, sertifikatı və medalları ilə mükafatlandırılmışdır.

**Aysel SƏRKƏROVA,**
**mərkəzin istehsalat təlimi ustası.**